Ammonoidealar

Vikipediya, azad ensiklopediya

Ammonoidealar	
Elm	Geologiya

Ammonoidealar (*Ammonoidea*) – mühüm biostratiqrafik əhəmiyyəti olan qırılmış mollüskları əhatə edən yarımsinif. Əksər ammonitlərin qabıqları bir müstəvi üzərində yerləşən, bir-biri ilə təmasda olan və müxtəlif dərəcədə bir-birini örtən bir neçə dolaqdan ibarətdir. Belə qabıqlar üçün monomorf qabıq termini işlətmək məqsədəuyğundur. Ontogenezin müxtəlif mərhələlərində borucuqların yerləşmə forması müxtəlif olan ammonitlər üçün heteramorf qabıqlar xarakterikdir. Monomorf ammonoideaların qabıqlarının müxtəlifliyi, dolaqların bir-birini örtmə dərəcəsi və kəsiyinin forması ilə müəyyən olunur. İnvolyüt qabıqlardan (tam örtülmə) başlamış yarıminvolyüt (qismən örtülmə), evolyüt (son dolaq ancaq axırdan əvvəlki ilə təmasda olur) qabıqlaradək bütün keçid formalar müşahidə olunur. Yetkin ammonoidea qabıqlarının ölçüləri 2-3 sm-dən 30-40 sm-dək, müstəsna hallarda isə ammonit-nəhənglərin diametri 2 m çatır. Dolaqların təmas xəttləri tikiş adlanır. Qabığın orta hissəsində hər iki tərəfdə yerləşən oyuq-göbək adlanır. Qabıqların səthi hamar və relyefli (bəzəkli) olur. Formasından asılı olmayaraq ammonitlərin qabıqları, digər yarımsiniflərdə olduğu kimi, bir sıra kameralara bölünür. Yaşayış kamerası 0,5 - 2 dolağı əhatə edə bilər. Qısa kisə şəkilli və ya uzun soxulcan şəkilli yumşaq bədən əzələlər vasitəsilə yaşayış kamerasının arxa tərəfinə birləşir. Fraqmokonun kameraları qazla (hava), bəziləri isə maye ilə (hidrostatik) dolurmuş. Sifon dar, adətən qarın və bəzən (gec devon Clymeniida nümayəndələrində) kürək tərəfə yaxın yerləşir. Qısa septal borucuqları arxaya (paleozoy ammonoideyalərində) və irəliyə (mezozoy nümayəndələrində) səmtlənmişdir. Ammonoidealar əsas əlamətlərindən biri arakəsmə xətlərinin quruluşudur. Arakəsmələrin büzməli kənarı ilə qabıq arasında mürəkkəb birləşmə xəttində bir-birinə nisbətən əks istiqamətə yönəlmiş yəhər və qanad (pər) adlanan əyrilər ayrılır. Zamanca bir-birini əvəz edən dörd tip belə xətt ayrılır: aqoniatit (D), qoniatit (D-P), seratit (C_3- T, K_2), ammonit (T-K). Ammonoidealar dəstələrə bölünməsi qanad xəttinin quruluşuna, qabıqların ontogenez və filogenezdə dəyişilib mürəkkəbləşməsinə, həmçinin sifonun vəziyyətinə əsaslanır. Ammonoidealar 7 dəstəyə ayrılır: Agoniatitida (D-K), Goniatitida (D_2-P), Clymeniida (D_3), Ceratitida (P-T), Phylloceratida (T-K), Lytoceratida (T_3-K), Ammonitida (J-K). Ammonoidealar arxistratiqrafik qrupudur. Bu orqanizm kompleksləri əsasında ümumi stratiqrafik bölgünün ən kiçik bölgüsü - zona ayrılır, regional və regionlararası korrelyasiyası aparılır. Devon - üst təbaşir.

Həmçinin bax

- Biostratiqrafiya
- Mollüsklar
- Ontogenez

Mənbə

Geologiya terminlərinin izahlı lüğəti. — Bakı: Nafta-Press, 2006. — Səhifələrin sayı: 679.

Mənbə — "https://az.wikipedia.org/w/index.php?title=Ammonoidealar&oldid=4690402"

Bu səhifə sonuncu dəfə 27 aprel 2019 tarixində, saat 20:46-də redaktə edilib.

Mətn Creative Commons Attribution-ShareAlike lisenziyası altındadır, bəzi hallarda əlavə şərtlər tətbiq oluna bilər. Ətraflı məlumat üçün istifadə şərtlərinə baxın.